Hamlet İSAXANLI

# Azərbaycanlılar Amerika haqqında

## ədəbi qaynaqlar və publisistika nə söyləyir




*(Əvvəli 181-ci sayımızda)*

**Həsən bəy Məlikov-Zərdabi** (1842-1907), Tiflisdə gimnaziyada oxumuş, oranı bitirdikdən sonra 1861-ci ildə Moskva Universitetinə daxil olmuş və 1865-ci ildə fizika-riyaziyyat fakültəsinin təbiət elmləri bölməsini bitirmişdir. Moskvada qalıb elmi-tədqiqatla məşğul olmaq təklifi alsa da, Azərbaycana qayıtmağı üstün tutmuş, vətənində geniş maarifçilik



*Həsən bəy Məlikov-Zərdabi*

fəaliyyətinə başlamışdır. O, xeyriyyəçiliklə məşğul olan cəmiyyətlər qurulmasının vacibliyini dərk etmiş, təbliğat aparmış, özü belə cəmiyyətləri qurmuş, bu yolla maariçilik hərəkatına təkan verməyə çalışmışdır.

1873-cü ildə öz tələbəsi, Azərbaycanın gələcək görkəmli dramaturqu Nəcəf bəy Vəzirovla birlikdə milli teatrın yaranması yolunda ilk addımı atmış, məktəbdarlıq etmiş, müsəlman qızların təhsili məsələsində də ilk təşəbbüs ona məxsusdur. H. Zərdabinin Azərbaycan mədəniyyəti qarşısında ən böyük xidməti isə 1975-1977-ci illərdə ilk azərbaycandilli qəzeti - **«Əkinçi»** qəzetini nəşr etməsidir. Bu qəzetin fəaliyyəti senzura tərəfindən dayandırıldıqdan sonra da Həsən bəy jurnalist kimi fəaliyyətini dayandırmamışdır.

1977-ci ildə «Əkinçi»nin 13-cü sayında Bakı nefti və neft çıxmaq ehtimalı olan yerlərin alınıb-satılması mövzusuna toxunan Həsən bəy qiymətlərin qalxıb- enməsini Amerikan neftinin Rusiya bazarına gəlməsi ilə izah edir. Amerikanın «**neft cövhəri**»ni Rusiyaya ucuz satması nəticəsində əvvəlcə Bakıda neftin qiymətinin çox aşağı düşdüyünü qeyd edir, sonra isə «**neft sahiblərinin dad-fəryadı yerinə yetişdiyinə**» görə «**Amerika cövhərindən 50 qəpik artıq tamojni xərci**» almaqla «**neft sahiblərinin işi yenə yaxşı oldu**». Qəzetin 19-cu sayında isə o, «**tamojni xərci**»nin zavod-karxana sahiblərinə xeyir verdiyini, kəndlilər üçün isə, «**ələlxüsus əkin, ziraət üçün, bu xərc çox zərərdir**» fikrini irəli sürür və bunu təsdiq etmək üçün «**Şimali Amerika Cümhuriyyəsində çap olunan əkin-ziraət qəzetlərinin birisi**»nin apardığı hesablamaları gətirir.

Müxtəlif kənd təsərrüfatı və ərzaq mallarından söhbət açarkən H. Zərdabi onların bizim yerlərə haradan gəldiyi, bazar qiymətlərinin müqayisəsi və onların xammal kimi necə istifadə olunması barədə danışmağı da unutmur. O yazır (1877): «**1848-ci ilə kimi Avropa əhli qarğıdalı işlətmirdi... keçən il Amerikadan bircə ingilis vilayətinə 9 milyon çetvert qarğıdalı gəlib**». «**Tənbəki iki qism olur. Biri Amerika tənbəkisi ki,**

**onun yarpağının ucu şiş və çiçəkləri qırmızıdır və birisi osmanlı tənbəkisi...». «Amerikada yemişdən, yəni qovundan qənd qayırmaqdan ötrü bir neçə karxana açılıb... və əlavə, yemişin toxumundan yağ çəkirlər».** O, ətin saxlanmasının müxtəlif yollarından danışır, o cümlədən, Amerikada ətin necə şora qoyulduğunu da təfsilatı ilə başa salır.

1892 - 93-cü illərdə «**Kaspiy**» və «**Kavkaz**» qəzetlərində Həsən bəy Azərbaycanın müxtəlif bölgələrində yetişən biyan kökü (*Glucurrhiza glabia*), onun yayılması, müxtəlif sahələrdə işlənməsi, onun yerli maldar əhalinin təsərrüfat həyatında oynadığı rol haqqında söhbət açır, incə iqtisadi mülahizələr aparır. (Qeyd edək ki, bu dövrdən başlayaraq Həsən bəyin məqalələrinin böyük qismi rus dilli nəşrlərdə çap olunur, sadəcə həmin dövrdə azərbaycandilli nəşrlər yox idi və ya yox dərəcəsində idi.) «Mədəni dənizçilər» (ruscası - «Просвесщенниийе мореплаватели») adlı şirkətin hər il hamının yaddan çıxardığı kəndlərə minlərlə rubl pul göndərib biyan kökü aldığını müzakirə edir. O, biyan kökü istehsalının nəhəng ölçülərə çatdığını, satış qiymətlərinin xeyli aşağı olduğunu, nəticədə əhalinin otlaq sahələrinin azaldığını, hökumət məmurlarının bu məsələyə diqqət yetirmədiklərini söyləyir, fikirlərini sübuta yetirmək üçün misallar gətirir və kiçik hesablamalar aparır. 1888-89-cu illərdə Ucarda fabrik qurmuş amerikan sahibkarı Urqartın fəaliyyətindən, böyük «Blis» şirkətinin monopoliya yaratmaq cəhdlərindən danışır, biyan kökü məsələsinin iqtisadi baxımdan diqqətlə araşdırılmasını vacib sayır. Həsən bəy şirkətlər arasında rəqabətin güclənməsinin əhaliyə xeyri olduğunu göstərir, şirkətlərin məhsul yığımının əvvəlində qəsdən gecikərək qiymətləri aşağı saldığlarını qeyd edir.

«**Soruşula bilər ki, bizim ucqar, geridə qalmış diyarımızla gümüş bohranında olan Amerikanın ümumi nəyi ola bilər, halbuki, bu böhran, bizim mərkəzlərdən yan keçərək burada tufan qoparmağa hazırdır**». Sonra müəllif əhalinin biyan kökü satmağa alışdığını, tənbəlləşdiyini və son zamanlar məhsulun 97%-nin Amerikaya aparıldığını qeyd edərək, əgər böhran üzündən amerikalılar keçən il tədarük edilmiş məhsulu almasalar və ya cüzi miqdarda alsalar, bizim kənd camaatının halı necə olacaq, deyə narahatlığını bildirir.

H.Zərdabi təbiət elmləri sahəsində yeni kəşflər, ekoloji tarazlıq, kənd təsərrüfatı, biologiya və mikrobioloji məsələlər, astronomiya, təhsil, dil, məişət kimi sahələrdə oxucuları maarifləndirir, elmin nailiyyətlərini sadə dildə izah etməyə müvəffəq olurdu. Azərbaycanlı müasirləri marasında təbiətşünaslığı və məişət məsələlərini belə geniş əhatə etməyə qadir olan ikinci şəxs yox idi. Bu yazıların böyük hissəsi «Kaspiy» qəzetində çap olunurdu. 1900-cü ildə o, bitki və heyvanlar aləminin tənəffüs xüsusiyyətlərindən söhbət açaraq, insanın bitkiləri amansızcasına məhv etdiyi dövrün mədəni ölkələrdə artıq bitdiyini və əksinə, hazırki zamanda havanın təmizlənməsi üçün bitkilər əkildiyini yazır. Amerikada gül və ağac əkmək məqsədi ilə uşaq bayramı keçirildiyini və praktik düşüncəyə malik olan amerikalıların bu bayramı bütün ölkə miqyasında bir qaydaya çevirdiklərini, bu məqsədlə müəllimlərin mütəmadi olaraq şagirdləri ağacsalma gəzintilərinə apardığını söyləyir. «**Amerikada həddindən çox məktəblər olduğuna görə, ağacsalma bayramı tezliklə ümumi xalq bayramına çevrildi. Bu bayramların xoş nəticələri özünü göstərməkdə gecikmədi : məktəblər, böyük və kiçik kəndlər, qəbristanlıqlar və bütün boş yerlər yaşıllığa büründü və bu bayrama görə Amerika Ştatlarında ağacların sayı 400 milyon artdı».** Müəllif belə bayramın və tədbirlərin şərqi Zaqafqaziyada, xüsusən Bakı məktəblərində keçirilməsi arzusunu da dilə gətirir.

Bu məqalədən cəmi iki gün sonra Həsən bəyin məktəblərdə əqli inkişafla əl əməyini birləşdirən sistemlərə həsr olunmuş məqaləsi çap olunur. Bu məsələnin vacibliyindən və qısa tarixçəsindən sonra əsas mövzusuna - ən görkəmli təmsilçisi **C.Hanford Henderson** olan yeni Amerikan məktəb islahatı haqqında müfəssəl söhbətə keçir. Bu məktəblərdə əl əməyinin tətbiqi peşə məktəbi ideyasından uzaqdır, yalnız mənəvi-tərbiyəvi məqsəd güdür. Müəllif belə məktəblərin beş növünü təsvir edir, onların tədris planları haqqında məlumat verir və Hendersonun səxsi müşahidələrinə əsasən belə məktəblərdə sözsüz uğur əldə olunduğunu söyləyir. Əqli, ruhi və fiziki inkişafın harmoniyasına nail olaraq «bütöv» uşaq tərbiyə etmək həmin məktəblərin əsas fəlsəfəsi idi. Qeyd edək ki, C.H.Henderson (1861-1941) Nyu York şəhərində Pratt İnstitutunun direktoru olmuş, praktik fəaliyyəti ilə yanaşı, yazdığı «Təhsil və daha geniş həyat» (*Education and the larger life*, 1902) və «Təhsilli olmaq nə deməkdir» (*What is it to be educated*, 1914) kitabları ilə də tanınmışdır.

Həsən bəy vəba, qızdırma (malyariya), yoluxucu xəstəliklər və onların daşıyıcılşarı, qida, gigiyena kimi mövzulara tez-tez müraciət edir,



***C.Hanford Henderson***

profilaktik tədbirlərin həyati vacibliyi barədə yazırdı.

Şimali Amerikada çox böyük sahələrdə yayılmış olan bataqlıqların qurudulmasının çətin və bahalı olduğunu yada salaraq, Amerikan entomoloqu Hovardın ağcaqanadlarla mübarizə üçün işlətdiyi üsulun, yəni nohurlara az miqdarda neft (kerosin) buraxmaqla sürfə və yumurtacıqların məhv edilməsinin effektindən danışır. İki il sonra, 1902-də Həsən bəy yenidən həmin məsələyə qayıdır, fransız, italyan, ingilis alimlərinin ağcaqanadlarla yoluxma nəzəriyyəsi barədə maraqlı xülasə verir. **«Ağcaqanadla mübarizəyə keçərkən, bu işdə son zamanlar çox uğur qazanılıb, Şimali Amerika Ştatlarından başlayaq»** deyə doğrudan da çox maraqlı son məlumatları oxuculara çatdırır. Nyu York körfəzindəki Steten-Aylend adasının bataqlıqlarında Doktor Dotinin başçılıq etdiyi sanitarlar qrupunun qazandığı uğurlardan danışır, Nyu-York əhalisinə qızdırmanın mahiyyəti və tövsiyə olunan profilaktik tədbirlər barədə kitabçalar paylandığını yazır. Havanada da, **«amerikalılara xas olan enerji və inadla, ağcaqanadlar əleyhinə aparılan kütləvi tədbir gözəl nəticə verdi».**

H.Zərdabi bu yazısında *«Scientific American»*, 15 iyun 1901, dərgisinə əsaslanaraq Amerikan hərbi hissələrində malyariya və sarıqızdırmanın daşıyıcısı olan ağcaqanadlarla uğurlu mübarizəni də qeyd edir və yaponların da bu işlə ciddi məşğul olduğunu tamam yeni - 26 aprel 1902 tarixində çıxan 17 saylı *«Scientific American»*a istinadən xəbər verir!

H. Zərdabinin 1905-ci ildə «Həyat» qəzetində çap etdirdiyi «**Torpaq, su və hava**» adlı əsəri fiziki coğrafiya və təbiətşünaslığın seçilmiş məsələlərinin populyar şərhinə həsr olunmuşdur. Daş kömürün yayılması və əmələ gəlməsi barədə qısa və sadə fikir söyləyir, «**daş kömür əgər bizim Qafqaziyada, İngiltərədə, Amerikada var isə, yəqin ki, bu yerlərin hamısı daş kömür əmələ gələn zaman dərya içində imişlər». «Neçə milyon il Amerikanın daş kömürünün qatı əmələ gəlibdir ki, onun 50-60 arşın qalınlığı var».**

H. Zərdabinin ölümündən sonra Kiyevdə oxuyan azərbaycanlılar (Yusif Vəzirov - Çəmən zəminli və başqaları) onun çap olunmamış «**Bədəni salamat saxlamaq düsturüləməlidir**» əsərini ruscaya tərcümə edib «**Qiqiyena**» adı ilə nəşr etdirmişdilər. Zamanına görə vacib mövzunu işıqlandıran bu əsər zövqlə seçilmiş məsələlərdən sadə dildə söhbət açır, kiçik dərslik təsiri bağışlayır və bu gün də maraqla oxunur. «**Amerikada adam azdır, yer çox. Ona binaən orada malı çox saxlayırlar** və **ət ucuzdur**». O, Amerikadan Avropaya gəmilərlə soyuducuların içində böyük miqdarda ət gətirildiyini yada salaraq, bir təzə maraqlı məlumat da verir ( ardınca texnologiyasına da nəzər salmaqla): «**bu axır zamanda bir kompaniya bina olub, ət suyu gətirib satmağa».**

Əhalinin nə içdiyi barədə söhbət edərkən «**Kakao Amerikadan gələn ot toxumudur**» deyə müəllif «**qəhvə, çay və kakaonun dünyada nə qədər içilməyi**» barədə də məlumat verir. Məlum olur ki, İngilis, Firəngistan, Almaniya, Avstriya və Cümhuruyyəti-Amerika müqayisə edildikdə hər adamın orta hesabla bir ildə içdiyi qəhvəyə görə Amerika birinci, Almaniya ikinci, çaya görə İngiltərə birinci, Amerika ikinci və kakaoya görə Fransa birinci və Amerika ikincidir.

***(ardı var)***